Səid Rüstəmov - 100

# Lirik mahnılar müəllifi

2007-ci il yubileylərlə zəngindir. Bu sırada görkəmli Azərbaycan bəstəkarı, dirijor və pedaqoqu Səid Rüstəmovun da adı var.

Səid Əli oğlu Rüstəmov 1907-ci il mayın 15-də Bakıda anadan olmuşdur.

1930-cu ildə Bakı musiqi məktəbini bitirmişdir. Burada o, tar üzrə Ü.Hacıbəyov və M.Mənsurovdan dərs almışdır. S.Rüstəmov həm də Azərbaycan Pedaqoji İnstitutunun (ADPU) məzunu olmuşdur (1932).

S.Rüstəmovun yaradıcılığı Azərbaycan musiqi folkloru ilə sıx bağlıdır. O, muğam formalarından, aşıq musiqisi, xalq mahnı və rəqslərindən, müasir kütləvi mahnı janrlarından istifadə etmiş, özünəməxsus musiqi dili yaratmışdır. Mahnı janrı yaradıcılığında əhəmiyyətli yer tutur. Onun lirik, əmək, sülh və vətənpərvərlik mövzusunda bəstələdiyi "Alagöz", "Qurban adına", "Şer deyilmi", "Gəlmədin", "Süreyya", "Həkim qız", "Mən sülhə səs verirəm", "İrəli", "Cəbhəyə" və s. mahıları geniş şöhrət qazanmışdır.

S.Rüstəmov müasir mövzuda yazılmış ilk Azərbaycan musiqili komediyası - "Beş manatlıq gəlin"in (1939), eləcə də "Durna" (1947) və "Rəisin arvadı" (1961) musiqili komediyalarının müəllifidir.

30-cu illərdə Azərbaycan musiqi folklorunun toplanmasında fəal iştirak etmişdir ("Aşıq mahnıları", 4 məcmuədə, B., 1938; "50 Azərbaycan xalq mahnısı", B., 1938; "100 Azərbaycan xalq mahnısı", B., 1968 və s.)

1931-ci ildən Azərbaycan Xalq Çalğı Alətləri Orkestrinin konsertmeysteri, 1935-1973-cü illərdə orkestrin baş dirijoru və bədii rəhbəri olmuş, bu orkestr üçün bir sıra əsərlər ("Bayatı-kürd fantaziyası", "Azərbaycan" suitası və s.) yazmışdır.

S.Rüstəmov 1929-cu ildən pedaqoji fəaliyyət göstərmişdir. O "Tar məktəbi"nin (1935), "Tar üçün etüdlər"in (1950), tar ilə xalq çalğı alətləri orkestri üçün konsertin, kantataların müəllifidir.

G.ƏLYAROVA